# İran Bayatları

***Əsl (Ağ) Bayatlar:***

Səfəvi çağında İranda yaşayan Bayatlar tək bir təşəkkül halında deyil, çeşidli bölgələrdə oturan üç qol şəklində bulunurdular ki, bu da onların ayrı ayrı siyasi keçmişə sahib olmalarından irəli gəlmiş olsa gərəkdir. Bu qollardan yalnız Bayat adını daşıyanlar, Həmədanın güneydoğusunda Qəzzaz və Girihrud bölgəsində yurd tutmuşdular. Şah Abbasın tarixçisi İskəndər Münşi Türkmanın sözlərinə, bu Bayatların sayı hələ Təhmasib dövründə on min alaçıq idi. Təhmasib çağında bunlar, Əmir Şah Bəg, Süleyman Bəg, Hacı Üveys Bəg və Seyf Bəg kimi, əmirlər tərəfindən idarə olunmuşlar. Bu sonuncusu ilə bərabər Əli Sultan adlı digər bir Bayat bəyi Qanuni Sultan Süleymanın İran səfərləri ilə əlaqədar olaraq Osmanlı qaynaqlarında da qeyd olunmuşlar. Bütün bu Bayat əmirləri hökmdarları Şah Təhmasibin ən bəlli başlı səfərlərinə qatılmışlar. Həsən Bəg Rumlunun və adı bəlli olmayan bir müəllifin qeyd etdiklərinə əsasən Bayatlar, adı keçən Səfəvi şahının ölümü ərəfəsində, Rumlu, Qacar və Avşarlarla yanaşı sarayda qoruculuq xidmətini yerinə yetirməkdə idilər. Bayatlar ilə Lurlar arasında Nəhavənd məntəqəsindəki Bürucərd qəsəbəsi üstündə əski bir ədavət vardı ki, bu ədavət Şah Abbasın ilk səltənət illərində Həmədan valisi olan Bayat əmiri Uğurlu Bəyin qətli ilə son həddə çatmışdı. Şah Abbas 1594-cü ildə şəxsən ordusunun başında Luristana girərək, Bayatların qisasını almışdır. Geri dönüşündə Bürucərdə yol alıb Bayatlarla görüşən Şah, Həmədan əyalətinə öldürülmüş Uğurlu Bəyin qardaşı Şahqulu Sultanı hakim təyin etməklə onlara iltifatını göstərmişdir. Bayatlar, buna bir minnətdarlıq kimi hökmdarlarına, qızılbaşlar arasında gözəlliyi ilə məşhur olan və öz adları ilə (Bayat-i nicat) anılan cins atlarından üç min ayğır və qısraq sunmuşlar. Abbasın Bayatlara iltifatının digər bir misalı da onun, bu boyun əmirlərindən Hüseyin Əli Bəgi 1598-də elçiliklə İspaniyaya göndərmiş olması göstərilə bilər. Eyni hökmdar zamanında Yar Əli Sultan, Gəda Əli Sultan və Bədir Sultan adlı Bayat bəyləri seçilmişlər. Bunlardan birincisi və sonuncusu Çuxur-i Səəd (İrəvan) vilayətindəki bəzi sancaqların idarəsində bulunurdular. Gəda Əli Sultan da Maku qalası hakimi idi. Eyni yerlərdə, 17-ci yüzildə, bu Bayat bəylərinin oğulları hakim olmuşlar. Bu təyinatlar dolayısı ilə Bayatların bir qismi Azərbaycana getmiş və orada yerləşmişlər. Qızılbaş olan bu Bayatların əvvəlcə Ağqoyunlu ulusuna daxil olduqları və İrana Anadoludan bu elin siyasi fəaliyyəti sonucunda gəlmiş olduqları anlaşılır. Yuxarıda da bəhs etdiyimiz kimi, Məmlük əmiri Çikəmin basqı və zorbalığına dayana bilməyərək Ağqoyunlu bəyi Qara Yülükə sığınan bir qisim quzey Suriya Bayatlarının bunların əcdadı olduqlarına şübhə yoxdur. Ünlü İran tarixi müəllifi Malkolmun Bayatlara dair nəql etdiyi və bizim yerini hələlik təsbit edə bilmədiyimiz, bir rəvayətdə, Diyarbəkirdən Bağdad bölgəsinə və oradan da İrana köç edən Bayatlardan bəhs olunur ki, bu sözlər Ağqoyunlu Bayatları üçün doğru ola bilər. Onlar daha sonraları, Bayat-i mütləq yaxud Ağ Bayat adlarıyla İrandakı digər Bayat qollarından ayrılırdılar.

***Qara Bayatlar (Xorasan Bayatları):***

İkinci Bayat qolu, Xorasanda bulunurdu ki, bunlara Qara Bayat deyilməkdədir. İskəndər Bəyin ifadəsinə görə, Qara eli Cağatay qəbilələrindən olub, Səfəvi dövlətinin təşəkkülü sonucunda bu hökumətin xidmətinə girmişdir. Eyni müəllifin sözlərinə görə bunlar Nişapur bölgəsində otururdular.

Xorasanın bir qisim vilayətlərini keçici bir sürə əlinə keçirmiş olan Özbək hökmdarı Əbdülmömin Xan 1592-də Nişapuru geri almaq istəyən Səfəvi sərkərdəsi Fərhad Xanı geri çəkilməyə məcbur etdikdən

sonra, Qara Bayatlar üzərinə ordu çəkərək onları itaətə məcbur etmişdir. Ancaq bunlar əvvəlcə Cağataylardan o qədər çox kimsələri öldürmüşlərdi ki, Baba İlyas oğlu Mahmud Sultan və digər Bayat rəisləri adı keçən xanın hüzuruna gələrək ona tabe olduqları halda qətl edilmişlər və qalanlar da pərişan bir biçimdə dağılmışlar. Bu qətliamdan qaçıb, qurtulan Mahmud Sultanın qardaşı Məhəmməd Sultan qəbiləsini yenidən düzənləyərək sonraları Şah Abbasa çox böyük xidmətlər göstərmişdir. Hətta bu nədənlə adı keçən hökmdar tərəfindən bütün Qara Bayat eli təklif-i divanidən azad edilmişdir. Nişapurda 12 il valilik edən bu şəxsi ardından eyni vəzifəylə oğlu Bayram Əli Sultan əvəz etmişdir. Bu tarixdən etibarən Nişapur çox uzun bir zaman Bayatların əlində qalmışdır. Nadir Şahın meydana çıxışı ərəfəsində belə şəhər onlar tərəfindən idarə olunurdu.

Qara Bayat eli, biraz yuxarıda da işarə olunduğu kimi, İskəndər Bəy tərəfindən bir Cağatay təşəkkülü olaraq göstərilir ki, bu məqam Bayatlardan bir qolun Əmir Teymurun xidmətində bulunduğu haqqındakı sonrakı bir xəbəri, görünür doğrulamaqdadır. Ancaq Əmir Teymura aid əsərlərdə belə bir qeyd yoxdur. Böyük ehtimala görə bu Qara Bayatlar əskidən Xarəzm Türkmənləri arasında yaşayırdılar; daha sonradan siyasi nədənlərlə Cağataylara daxil olmuşlar. Onların Monqol-Bayaut və ya Qanqlı-Bayaut qəbilələrindən birinin qalıntısı olmaları bizcə zəif bir ehtimal olaraq görünür.

***Şam Bayadı (Qacar qəbiləsi Bayatları):***

İrandakı üçüncü Bayat təşəkkülünə gəlincə, bu təşəkkül, özlərini Anadoludan çox yaxşı tanıdığımız bizim Şam Bayadı qəbiləsinin bir qolundan başqası deyildir. Bu qol, İrana ünlü Qızılbaş Qacar boyu ilə bərabər Ağqoyunlular çağında gəlmişdir. Çünki Qacar boyu əslində Dulkadirli ulusundan olub bu ulusun Şam Bayadı, Yıva, Aqçalı və Ağcaqoyunlu qəbilələrinə mənsub qollar tərəfindən meydana gətirilmişdir.

Bayatların II Abbas zamanında (1642-1667) Mazandarandan Xorasana göndərildikləri haqqındakı Malkolmun rəvayəti yalnız bu Şam Bayatları üçün doğru ola bilər. Çünki, Qacar qəbiləsi əvvəlcə (16-cı yüzildə) Azərbaycanda Gəncə və Bərdə bölgəsində yaşamaqda idi və Astrabad məntəqəsində daha sonra yurd tutmuşdur. Artıq bu zamandan etibarən, Şam Bayadı oymağı mənsub olduğu qəbilənin tarixində mühüm bir rol oynamağa başlamışdır. Ünlü Qacar hökmdarı Fətəli Xan (Baba Xan) dövrü əmirlərindən Məhəmməd Əli Xan, qardaşı İsmayıl Xan, Pir Qulu Xan və oğlu Məhəmməd Bəkir Xan, Şam Bayadından idilər.

Malkolm, adını vermədiyi farsca bir yazmada Bayatların Səfəvilər zamanında 40 min ailə olaraq qeyd edildiyini söyləyir. Ancaq onlar indi tamamən yerləşmiş olub, bü gün yalnız Xəmsə vilayətində və Qaşqaylar arasında bir neçə kiçik oymaq halında qalıntıları qalmışdır.

Şərq musiqisindəki Bayati muğamı, şübhəsiz İran Bayatlarının xüsusi musiqisindən alınmışdır.

---

**Faruk Sümer — *«Bayatlar»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**